*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*

# DİLÇİLİK

https://doi.org/10.62837/2026.1.3

**NADİR MƏMMƏDLİ**
*Filologiya elmləri doktoru, professor*
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*

## I ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAY MƏXFİ ARXİV SƏNƏDLƏRİNDƏ

I Ümumittifaq Türkoloji Qurultayın nəfəsini arxiv sənədləri ilə yenidən canlandırdıq: protokollar, teleqramlar, çıxışlar, komissiya qeydləri… Bunlar sistemli, ardıcıl və elmi şəkildə təqdim olunur.

Azərbaycan Resbublikası Prezidentinin İşlər İdarəsi İctimai-siyasi Sənədlər Arxivi I Ümumittifaq Türkoloji Qurultayın tarixi üçün çox mühüm əhəmiyyət kəsb edən sənədlərlə zəngindir. Bu tarixi hadisənin siyasi, iqtisadi, sosial və mədəni mənzərəsini geniş əks etdirən qiymətli sənədlərin tariximizin yenidən işlənməsi və müstəqillik düşüncəsi baxımından dəyərləndirilməsi üçün zəngin bazadır. İctimai-siyasi Sənədlər Arxivində qorunub saxlanılan I Ümumittifaq Türkoloji Qurultayın məxfi, tam məxfi və adi sənədləri, qurultayla bağlı məktublar, protokollar, teleqramlar 100 il ərzində ilk dəfədir ki, işıq üzü grür və təhlil edilir. Bu qovluğa I Ümumittifaq Türkoloji Qurultayın çağırılması barədə İ.Stalinə göndərilmiş teleqramların, VKP(b) MK-nın bu barədə qərarları, Təşkilat Komissiyası, bu qurumun protokolları, məktubları, qurultaya gələn nümayəndə və nümayəndə heyətlərinin siyahısı, VKP(b) MK-nın qurultaya rəhbərlik edən şəxsləri haqqında materiallar, SSRİ



*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*

üzrə qurultayla bağlı stenoqrafik hesabatlar, bölmə iclaslarndakı çıxışlar və qurultaya aid sənədlər toplanmışdır (1, 57). Materialların hamısı və möhürlə təsdiqlənmişdir. Bu arxiv sənədlərinin rəsmi olaraq Moskva və Bakının partiya strukturlarında saxlanılmasının və nəzarətdə olduğunun sübutudur.

İlk dəfə olaraq arxiv sənədlərinin xronoloji transkripsiyası, seçmə tərcümələri və şərhi verilir.

Azərbaycan Kommunist (Bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi Gizli şöbənin məlumatının tam məxvi şəkildə saxlanması tələb olunur. AK(b)P MK Katibliyinin 14 iyun 1925 ci ildə 6-cı iclasının 32 saylı protokolundan çıxarışa əsasən qurultayın çağırılması ilə bağlı Cəbiyevin göstərişi müzakirə olunur və qəbul edilir:



Пролетарии всех стран соединяйтесь!

Азербайджанская Коммунистическая Партия (Большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

отдел СЕКРЕТНЫЙ

Строго-секретно. Хранить в особом личном деле.

№ ... Д. ... « ... » ... 192 г.

Тов. ...

Выписка из протокола № 32 Секретариата ЦК АКП (б-ов) от „14„ II 1925 г.

| §§ | Слушали | Постановили |
|---|---|---|
| 8 | О созыве Всесоюзного Тюркологического С'езда. ( т.Джабиев.) | 8. а/ Созыв С'езда признать необходимым. б/ Считать целесообразным созвать С'езд в Баку, вначале июня 1925 г. в/ Просить ЦК РКП, ввиду важности С"езда предложить Всесоюзной Научной Ассоциации Востоковедения обеспечить материально и организационно созыв С"езда. |

Правила о порядке хранения см. на обороте.

Баку, Коммунистическая, 1. Коммутатор №№ 8-08 и 7-01. При ответах ссылаться на наш №

a) Qurultayın çağırılmasını zəruri hesab etmək;

b) Qurultayın 1925-ci ilin iyun ayının əvvəlində Bakıda keçirilməsini məqsədəuyğun hesab etmək;

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*

c) Mərkəzi Komitənin, əhəmiyyətini nəzərə alaraq, SSRİ Elmi Şərqşünaslıq Assosiasiyasına Qurultayın çağırılması üçün maddi və təşkilati təminatı üzərinə götürməyi təklif etmək (2, 1).

***

Bu tip məxfi və gizli sənədlər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 6-cı şöbəsi tərəfindən verilir və qorunub saxlanılırdı:

1.Mərkəzi Komitənin protokollarından çıxarışların, habelə Mərkəzi Komitə və partkomlar tərəfindən verilmiş ayrı-ayrı göstərişlərin hansı şəxslərə göndəriləcəyi Mərkəzi Komitə katiblərindən biri, katibləri tərəfindən müəyyən edilir və yalnız konkret şəxslərə ünvanlanır.

2.Mərkəzi Komitənin və partkomların çıxarış və göstərişlərinin bu sənədlərdə adı keçməyən şəxslərə verilməsi qəti qadağandır.

3.Mərkəzi Komitə və partkomların çıxarış və ayrı-ayrı şəxsi göstərişləri xüsusi şəxsi işlərdə saxlanmalıdır və heç bir halda bu sənədlərin sovet və ya həmkarlar ittifaqı kargüzarlığına əlavə olunmasına yol verilməməlidir.

4.Mərkəzi Komitənin və partkomların çıxarış və göstərişlərinin surətinin çıxarılması, habelə onların sovet və ya həmkarlar ittifaqı kargüzarlığında yazılı şəkildə istinad olunması qəti şəkildə qadağandır.

5.Bu qərarların hər hansı bir pozuntusu baş verdikdə, Mərkəzi Komitənin gizli şöbəsi dərhal bu barədə məlumat verir və məsələ Mərkəzi Komitənin Katibliyinə və ya partiya komitələrinə çatdırılaraq, günahkarlar ciddi partiya məsuliyyətinə cəlb olunurlar.

Sənəd Türkoloji Qurultayının çağırılması üzrə Təşkilat Komissiyasının məruzəsinə Əlavələr başlığı altında təqdim olunub. Bu hissə Türkoloji Qurultayın təşkili ilə bağlı praktiki və maddi məsələlərə, o cümlədən mədəniyyət sarayının tikintisinə, qəzetlərdə təbliğata



2

Приложение к § 4

Предложения по докладу Организационного Комитета по созыву Тюркологического С"езда.

I. Поручить т.т. Агамали-оглы, Джабиеву и Мамед-Заде созвать совещание всех Азербайджанских организаций, разрабатывающихся и занимающихся вопросами алфавита, терминологии, словарей, научных форм, орфографии, истории, литературы и востоковедения, для установления между ними контакта об"единения и руководства их подготовительных работ к С"езду.

2. Поручить этой тройке обстоятельно выяснить вопрос о необходимости и возможности создания в Баку Азербайджано-[illegible] научно-исследовательского Института.

3. Поручить т.т. Агамали-оглы, Джабиеву, Мамед-Заде и С.М. Эфендиеву проверить степень внедрения, распространения и популярности нового алфавита в Азербайджане, в особенности в уездах, провести общий суммарный учет грамотных и обучающихся по латинскому алфавиту, проверить работу комитета нового латинского алфавита, изучить и выяснить причины, препятствующие широкому распространению нового алфавита. О результатах доложить ЦК.

4. Предложить ЦК АЛКСМ, Укомам и Азпросу – в течении ближайших месяцев, одной из своих ударных задач считать пропаганду нового латинского алфавита в уездах, среди крестьян, крестьянской молодежи, учащихся, в особенности учителей.

В середине ноября созвать в Баку совещание культурно-просветительных организаций и культурных работников Азербайджана, с тем, чтобы уезды были там представлены достаточно сильно, для обсуждения вопросов, стоящих в порядке дня Тюркологического С"езда. Перед этим совещанием созвать специальное совещание, посвященное исключительно новому латинскому алфавиту.

6. Обратиться с письмом от имени ЦК АКП /б/ к всем парторганизациям тюрко-татарских Республик об оказании содействия С"езду

və büdcə məsələlərinə həsr olunub.

Əlavə № 5/1

Yoldaş Ağamalıoğlu, Cəbiyev, Hüseynzadə və Məmmədzadəyə tapşırılsın ki, əlifba, terminologiya, lüğətçilik, elmi formalar, orfoqrafiya, tarix, ədəbiyyat və etnogenezin öyrənilməsi sahəsində çalışan bütün Azərbaycan təşkilatlarını bu sahələr üzrə əlaqələndirsinlər və həmin təşkilatların qurultaya hazırlıq işlərinə rəhbərlik etmək məqsədilə birləşməsini təşkil etsinlər. Bunun üçün aşağıdakılar tələb olunur:

1. Bu üçlüyə tapşırılsın ki, Bakıda Azərbaycan Şərq Elmi-Tədqiqat İnstitutunun yaradılması zərurəti və imkanı məsələsini ətraflı araşdırsınlar.
2. Yoldaş Ağaməmalıoğlu, Cəbiyev və Hüseynzadəyə tapşırılsın ki, yeni Azərbaycan əlifbasının, xüsusilə də rayonlarda, tətbiqi, yayılması və populyarlaşdırılması səviyyəsini yoxlasınlar; latın əlifbası ilə maarifləndirmə və tədris işlərinin hansı səviyyədə həyata keçirildiyini müəyyən etsinlər, yeni əlifba ilə yazılmış kitabların hazırlanma vəziyyətini araşdırsınlar, yayılmasının qarşısını alan səbəbləri müəyyən etsinlər və nəticələr barədə Mərkəzi Komitəyə məlumat versinlər.
3. Azərbaycan Kommunist Gənclər İttifaqı MK-ya, “Kommunist” və “Azərnəşr”ə təklif edilsin ki, qarşıdakı aylarda yeni latın əlifbasının rayonlarda, xüsusilə kəndli və müəllimlər arasında təbliğini öz fəaliyyətlərinin əsas istiqamətlərindən biri hesab etsinlər.
4. Noyabr ayının ortalarında Bakıda maarif təşkilatları və mədəniyyət işçilərinin müşavirəsi çağırılsın ki, rayonların Türkoloji Qurultay üçün yetərincə hazırlıqlı olub-olmadığını və bu işdə qarşıya çıxan məsələləri müzakirə etsinlər. Bu müşavirə xüsusi olaraq yalnız latın əlifbası məsələsinə həsr olunsun.
5. SSRİ-nin Milli Məsələlər üzrə Mərkəzi Komitəsinin məktubuna və digər respublikaların müraciətlərinə cavab olaraq, Qurultayın çağırılmasına dair müvafiq yazışmalar həyata keçirilsin.
6. Kütləni qurultaya hazırlamaq.
7. Zakraykom, Zaksovnarkom və SSRİ Xalq Təsərrüfatı Komissarlığı qarşısında qurultayın çağırılması ilə bağlı xərclərin təmin olunması məsələsini qaldırmaq.
8. Qəzet redaksiyalarına Türkoloji Qurultayın geniş şəkildə təbliğ edilməsini tapşırmaq.
9. Qurultayın Türk Mədəniyyəti Sarayında keçirilməsi. Ümumittifaq Xalq Təsərrüfatı Şurasına (VSNX) tapşırılsın ki, Saray binasının tikintisini təcili şəkildə başa çatdırsın.

10. Sovetlər İttifaqı Mərkəzi Komitəsinə (SİMK) təklif edilsin ki, Azərbaycanıı Tədqiq və Tətəbbö Cəmiyyətin illik smetasını (büdcəsini) təcili şəkildə nəzərdən keçirsin.

Doğrudur: QLEBOV (1, 2)

***

Bu sənəd Azərbaycan nümayəndələrinin Türkoloji Qurultaya hazırlıqla bağlı gördüyü tədbirlərin konkret planını əks etdirir. Burada əsasən əlifba islahatı, terminologiya, lüğətçilik, orfoqrafiya, tarix, ədəbiyyat və etnogenezlə bağlı təşkilatların əlaqələndirilməsi, yeni latın əlifbasının tətbiqi və təbliği, maarifləndirmə işlərinin gücləndirilməsi və qurultayın təşkili üçün maliyyə-təşkilati məsələlərin həlli üzrə göstərişlər verilmişdir.

Əsas istiqamətlər:

1. Elmi koordinasiya: Azərbaycan təşkilatlarının birləşdirilməsi və yeni institutun yaradılması məsələsinin araşdırılması.
2. Əlifba islahatı: Latın qrafikasının bölgələrdə tətbiq səviyyəsinin yoxlanılması, yayılma problemlərinin müəyyənləşdirilməsi və onların aradan qaldırılması.
3. Maarif və təbliğat: Kommunist Gənclər İttifaqı, "Kommunist" qəzeti və "Azərnəşr"in latın əlifbasının kəndlilər və müəllimlər arasında təbliğinə yönəldilməsi.
4. Müşavirə: Bakıda maarif və mədəniyyət işçilərinin toplantısının keçirilməsi və xüsusi olaraq latın əlifbası məsələsinin müzakirəsi.
5. Təşkilati və maliyyə məsələləri: Qurultayın keçirilməsi üçün maliyyə təminatı, təbliğat işlərinin gücləndirilməsi, mətbuatda geniş işıqlandırılması və tədbirin Türk Mədəniyyəti Sarayında keçirilməsi üçün tikintinin sürətləndirilməsi.
6. Əsas təminat: Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin illik büdcəsinin təcili baxılması.

***

Əlifba məsələsinin mərkəzi rol alması: Sənədin bütün maddələrində əsas diqqət latın əlifbasının tətbiqi və onun maarif, kənd təsərrüfatı, müəllimlər arasında yayılması üzərində cəmlənmişdir. Bu, göstərir ki, əlifba islahatı sadəcə texniki məsələ deyil, həm də ideoloji, mədəni və siyasi transformasiyanın simvolu kimi qəbul olunmuşdur.

Elmi mərkəzlərin yaradılması təşəbbüsü: Bakıda yeni Şərq Elmi-Tədqiqat İnstitutunun yaradılması məsələsi diqqət çəkir. Bu Azərbaycan elmi mühitinin institutlaşması və müstəqil şəkildə türkoloji araşdırmaların aparılması üçün mühüm addım idi.

Siyasi və təşkilati koordinasiya: Sənəddə yalnız elmi məsələlər yox, həm də SSRİ qurumları qarşısında maliyyə və təşkilati təminat məsələləri qaldırılır. Bu, göstərir ki, qurultay həm yerli, həm də İttifaq miqyasında böyük siyasi əhəmiyyət daşıyırdı.

Maarifləndirmə və kütləvi hazırlıq: Mətbuat orqanlarının, nəşriyyatların və gənclər təşkilatlarının bu işə cəlb olunması kütləvi ictimai şüurun dəyişdirilməsi

məqsədinə xidmət edirdi. Bu, əlifba islahatını sadəcə akademik müzakirə səviyyəsindən çıxarıb geniş xalq hərəkatına çevirmək niyyətini ortaya qoyur.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*

ISSN 2224-9257



*Пролетарии всех стран соединяйтесь!*

جمله جهان فقرای کاسبه‌سی برلشگز!

آذربایجان قومونیست فرقه‌سینک (بولشویک) قومیته‌سی

Азербайджанская Коммунистическая Партия (Большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

*отдел СЕКРЕТНЫЙ*

Строго-секретно. Хранить в особом личном деле.

№ ........ Д. ........ «......» .................. 192 г.

Тов. ..............................

Выписка из протокола № 54 Секретариата ЦК АКП (б-ов) от „24„ X 1925 г.

| §§ | Слушали | Постановили |
|---|---|---|
| 4 | Доклад организационного Комитета по созыву Тюркологического С"езда. ( т.Джабиев.) | 4. а/ Предложения по докладу, представленные т.Джабиевым, утвердить за исключением п.п.9 и 12 с поправками, внесенными на заседании:. ( Предложения прилагаются). б/ Обратить внимание СНК АССР на то, что Общество по изучению и обследованию Азербайджана не пользуется уже заслуженным им вниманием. В частности общество находится в невозможном помещении. Признавая необходимым срочно озаботиться подысканием подходящего для О-ва помещения. |

Баку, Коммунистическая, 1. Коммутатор №№ 8-08 и 7-01.
При ответах ссылаться на наш №

Правила о порядке хранения см. на обороте.

Mədəniyyət infrastrukturu: Qurultayın Türk Mədəniyyəti Sarayında keçirilməsi və binanın tikintisinin təcili başa çatdırılması məsələsi tədbirin nüfuzlu beynəlxalq mədəni-siyasi hadisə kimi planlaşdırıldığını bildirir.

Bu sənəd göstərir ki, 1926-cı il Türkoloji Qurultaya hazırlıq prosesi yalnız elmi deyil, həm də siyasi, ideoloji və mədəni müstəvidə strateji əhəmiyyət daşıyırdı. Azərbaycan nümayəndələrinin təqdim etdiyi plan həm SSRİ rəhbərliyinə, həm də türkologiya elminə dair genişmiqyaslı hədəfləri əks etdirir:

–Latın əlifbasının məcburi tətbiqi və geniş təbliği;
–Yeni elmi institutların yaradılması;
–Maarif işçilərinin kütləvi səfərbərliyi;
–Qurultayın nüfuzlu siyasi-mədəni tədbir kimi təşkili.

Bu, əslində, Azərbaycan SSR-in türkologiyada aparıcı rol almağa çalışdığını və əlifba islahatını mədəni modernləşmənin əsas sütunu kimi irəli sürdüyünü sübut edir. Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Katibliyinin 6-cı gizli şöbəsinin 1925-ci il 24 oktyabr tarixli 54 saylı protokol çıxarışından.

Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Türkoloji Qurultayın çağırılması üzrə Təşkilat Komitəsinin məruzəsiçisi Cəbiyevin çıxışını müzakirə edərək qərara alır ki, a/ məruzəçi T. Cəbiyev tərəfindən təqdim edilmiş təkliflər, 9-cu və 12-ci bəndlər istisna olmaqla, iclasda edilən düzəlişlərlə birlikdə təsdiqlənsin.

(Təkliflər əlavə olunur.); b/ SSRİ Mərkəzi İcraiyyə Komitəsinin diqqətinə çatdırılsın ki, Azərbaycanıı Tədqiq və Tətəbbö Cəmiyyətə münasibətdə laqeydlik var. Məsələn, Cəmiyyət yararsız bir binada yerləşir. Buna görə də Cəmiyyətin fəaliyyətinin təmin olunması üçün uyğun bir binanın təcili şəkildə axtarılması zəruri hesab edilir (1, 4).

***

Bu sənəd həm təşkilati təkliflərin təsdiqini, həm də Azərbaycanıı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyət şəraiti ilə bağlı narahatlığı əks etdirir.

1925-ci ilin oktyabrında Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Katibliyinin verdiyi qərar Türkoloji Qurultayın təkcə elmi deyil, həm də inzibati və təşkilati baxımdan ciddi şəkildə planlaşdırıldığını və partiya nəzarətində həyata keçirildiyini göstərir. Təşkilat Komitəsinin təqdim etdiyi təkliflər, müəyyən bəndlər istisna olmaqla, rəsmi şəkildə təsdiqlənir ki, bu da partiya orqanlarının prosesə birbaşa müdaxiləsini və onun istiqamətləndirici rolunu ortaya qoyur. Eyni zamanda, sənəddə elmi mühitin maddi-texniki şəraiti ilə bağlı ciddi narahatlıq da ifadə olunur. Xüsusilə Azərbaycanıı Tədqiq və Tətəbbö Cəmiyyətinin yararsız binada yerləşməsi və buna dövlət səviyyəsində laqeydlik göstərilməsi tənqid edilir. Bu isə bir tərəfdən elmi cəmiyyətin potensial əhəmiyyətinə diqqət çəkir, digər tərəfdən isə elmi fəaliyyətin mərkəzi strukturlar tərəfindən hələ də lazımi səviyyədə dəstəklənmədiyini bildirir.

Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin Gizli şöbəsinin 2 noyabr 1925-ci il tarixli iclasının 80 saylı protokolunun çıxarışından aydın olur ki, iclasda Türkoloji Qurultayın çağırılması üzrə Təşkilat Komissiyasının nümayəndələrinin, konkret olaraq Məmmədzadə və Zifeldin Moskvaya ezam olunması ilə bağlı S.M.Kirov məsələ qldırır, qərar yekdilliklə qəbul edilir (1, 5).

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2026
Səh. 3-20


Пролетарии всех стран соединяйтесь!

Азербайджанская Коммунистическая Партия (Большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ

Строго-секретно

№ ... «...» ... 192 г.

Тов. ...

Выписка из протокола № 80 Президиума ЦК АКП (б-ов) от „2/XI" 1925 г.

| §§ | Слушали | Постановили |
|---|---|---|
| 18 | О командировании в Москву представителей организационной комиссии по созыву Тюркологического С'езда. ( т.Киров.) | 18. Командировать т.т. Мамед-Заде и Зифельда. |

Баку, Коммунистическая, 1. Коммутатор №№ 8-08 и 7-01.
При ответах ссылаться на наш №

Правила о порядке хранения см. на обороте.

***

Məqsəd qurultayın təşkilati işlərinin mərkəzi orqanlarla əlaqələndirilməsidir. Bu sənəddən konkret nəticələr çıxarmaq olar:

1. Türkoloji Qurultayın təşkili yüksək səviyyədə koordinasiya olunurdu, qurultayın təşkili sırf elmi dairələrin deyil, həm də siyasi rəhbərliyin, konkret halda Azərbaycan KP(b) MK Rəyasət Heyətinin nəzarətində idi.
2. Məmmədzadə və Zifeld Moskvaya ezam olunması həmin şəxslərin təşkilatçılıq baxımından önəmli fiqurlar olduğunu göstərir. Onların ezam olunması qurultaydan öncə sadəcə yerli təşəbbüs deyil, SSRİ səviyyəsində əhəmiyyət daşıdığını göstərir.
3. S.M. Kirov məsələyə birbaşa müdaxilə etməsi faktı göstərir ki, məsələyə partiyanın yüksək rəhbərliyi də diqqət yetirir, Kirov kimi nüfuzlu bir şəxsin bu təklifi irəli sürməsi qurultayın siyasi əhəmiyyətini vurğulayır.

4. Qərarın yekdilliklə qəbul olunması partiya rəhbərliyi arasında fikir birliyi olduğunu və qurultayın keçirilməsinin ideoloji və təşkilati cəhətdən dəstəkləndiyini göstərir.
5. Əsas məqsəd mərkəzi orqanlarla əlaqələndirmə qurultayın yalnız elmi deyil, həm də ideoloji və siyasi bir tədbir kimi planlaşdırıldığını, mərkəzdən icazə və razılaşdırma olmadan keçirilməsinin mümkünsüz olduğunu göstərir.

1926-cı il I Ümumittifaq Türkoloji Qurultay sırf elmi tədbir olmaqla yanaşı, Sovet siyasi sistemində mərkəzi idarəetmə ilə sıx əlaqəli, ideoloji nəzarət altında hazırlanan bir hadisə idi. Onun təşkili SSRİ rəhbərliyinin ciddi nəzarəti və razılığı ilə həyata keçirilirdi.

1926-cı il Bakı Türkoloji Qurultayı elmi təşəbbüs kimi təqdim olunsa da, arxiv sənədləri göstərir ki, bu tədbirin hazırlanması və keçirilməsi sırf elmi müstəvidə deyil, yüksək siyasi və inzibati səviyyədə, mərkəzi sovet orqanları ilə sıx əlaqədə həyata keçirilirdi. Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin həm Rəyasət Heyəti, həm də Katibliyi müxtəlif tarixli iclaslarında qurultayla bağlı məsələləri müzakirəyə çıxarmış, təşkilati təklifləri rəsmi qərarlarla təsdiqləmiş, əsas təşkilatçıların Moskvaya ezamını təmin etmiş və ideoloji nəzarəti əlində saxlamışdır.

Bu sənədlər, bir tərəfdən Sovet hakimiyyətinin türk xalqlarının dil və mədəniyyət məsələlərinə dair siyasətini sistemli şəkildə yönləndirdiyini göstərir; digər tərəfdən isə Azərbaycan elmi-mədəni mühitinin maddi-texniki şəraitinin yetərsizliyi (məsələn, Tədqiq və Tətəbbö Cəmiyyətinin yararsız binada fəaliyyət göstərməsi) fonunda ciddi strukturlaşmaya və təşkili dəstəyə ehtiyac olduğunu üzə çıxarır.

Beləliklə, qurultay həm elmi mərkəzləşmə, həm də ideoloji idarəetmə baxımından Sovet rejiminin türk dünyasına münasibətinin konkret təzahürü kimi çıxış edir. Bu, eyni zamanda yerli təşəbbüslərin yalnız mərkəzin razılığı və təsdiqi ilə həyata keçirilə biləcəyini, sovet sistemində elmi fəaliyyətin də siyasi nəzarətdən kənarda olmadığını nümayiş etdirir.

Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsi GİZLİ şöbəsinin 16 noyabr 1925-ci il tarixli iclasının 82 saylı protokoluna əsasən S.M.Kirovun məruzəsi dinlənilir, çıxışdan irəli gələn qurultayın keçirilməsinin təxirə salınması müzakirə edilir.

Qərara alınır ki, qurultayın çağırılması təxirə salınsın, keçirilmə vaxtı yoldaş Məmədzadə və yoldaş Zifeldın Moskvadan qayıtdıqdan sonra iştirakı ilə müəyyən edilsin. Yoldaş S.Ağamalıoğlu və R.Axundova tapşırılsın ki, Rəyasət Heyətinin növbəti iclasına qədər Türkoloji Qurultayın çağırılması üzrə yenidən təşkil olunmuş Təşkilat Komissiyasının tərkibini təqdim etsinlər (1, 6).

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*



Пролетарии всех стран соединяйтесь!
جمله جهان فقرای کاسبه‌سی برله‌شگز!

آذربایجان قوممونیست فرقه‌سینك (بولشه‌ویك) قومیته‌سی
Азербайджанская Коммунистическая Партия (Большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ

Строго-секретно. Хранить в особом личном деле.

6

№ ... Д. «...» ... 192 г.

Тов. ...

Выписка из протокола № 82 Президиума ЦК АКП (б-ов) от „16„ XI 1925 г.

| §§ | Слушали | Постановили |
| --- | --- | --- |
| 8 | О Тюркологическом С'езде. ( т.Киров.) | 8. а/ Созыв С'езда отложить. Вопрос о времени созыва С'езда решить по приезде из Москвы т:т. Мамед-Заде и Зифельда. б/ Поручить т.т. Агамали-оглы и Р.Ахундову к следующему заседанию Президиума представить состав реорганизованного Организационного Комитета по созыву Тюркологического С'езда. |

Баку, Коммунистическая, 1. Коммутатор №№ 8-08 и 7-01.
При ответах ссылаться на наш №

Правила о порядке хранения см. на обороте.

***

Bu sənəd Qurultayın vaxtının yenidən müəyyənləşdirilməsi və təşkilat komitəsinin tərkibinin yenilənməsi barədə qərarları ehtiva edir. Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Gizli şöbəsinin 1925-ci il 16 noyabr tarixli iclas protokolu bir daha göstərir ki, Türkoloji Qurultayın keçirilməsi təkcə elmi və təşkilati deyil, həm də ciddi şəkildə siyasi qərarlara bağlı bir məsələ idi. S.M.Kirovun çıxışı əsasında Qurultayın keçirilməsinin təxirə salınması gündəmə gətirilmiş və iclasda rəsmi qərar kimi qəbul olunmuşdur.

Qərarda vurğulanan əsas səbəb, Qurultayın konkret vaxtının Moskvaya ezam olunmuş nümayəndələrin – Məmədzadə və Zifeldan – qayıdışından sonra müəyyən olunmasıdır**.** Bu bir daha sübut edir ki, qurultayın vaxtı belə, mərkəzdən gələn razılaşmalardan və əlaqələndirmələrdən asılı idi.

Eyni zamanda Təşkilat Komitəsinin yenidən tərkibinin formalaşdırılması məsələsi də gündəmə gətirilmiş, iş S.Ağamalıoğlu və R.Axundova həvalə edilmişdir. Bu fakt göstərir ki, təşkilati strukturda dəyişikliklərə ehtiyac duyulmuş, işin daha

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*

səmərəli və uyğun şəkildə davam etdirilməsi üçün yeni bir heyətin hazırlanması vacib sayılmışdır. Bu sənəd bir daha sübut edir ki, qrultay tam şəkildə Sovet siyasi idarəçiliyi çərçivəsində planlaşdırılmış və həyata keçirilmişdi. Hətta qurultayın keçirilmə vaxtı belə, yerli elm adamlarının və təşkilatçıların istəyi ilə deyil, Moskvadakı koordinasiyaların nəticəsinə əsasən müəyyən olunurdu. Bu isə sovet dövründə elmi təşəbbüslərin belə mərkəzləşdirilmiş ideoloji nəzarət altında həyata keçirildiyini göstərir.


7

Пролетарии всех стран соединяйтесь!

جلمه جهان فقرای کاسبەسی برلەشگز!

آذربایجان قوممونیست فرقەسینك (بولشەویك) قومیتەسی

Азербайджанская Коммунистическая Партия (Большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

отдел СЕКРЕТНЫЙ

Строго-секретно
Хранить в особом личном деле

№ ........ « ...... » .................... 192 г.

Тов. ..................................

Выписка из протокола № ........ Президиума ЦК АКП (б-ов) от „ ...... „ ............ 192 г.

| §§ | Слушали | Постановили |
|---|---|---|
| | | ж/ Предложить СНК окончательно оборудовать Дворец Просвещения для заседаний Тюркологического С"езда. |

Баку, Коммунистическая, 1. Коммутатор №№ 8-08 и 7-01.
При ответах ссылаться на наш №

Правила о порядке хранения см. на обороте.

Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin protokol çıxarışında tarix və protokol nömrəsi göstərilməsə də, Gizli şöbənin məxvi sənədinə əsasən Xalq Komissarları Sovetinə (XKS) təklif edilir ki, Türkoloji Qurultayın iclaslarının keçirilməsi üçün Maarif Sarayını (İsmailiyyənin binası – N.M.)tam şəkildə təchiz etsin (1, 7).

***

Bu sənəd Qurultay üçün fiziki məkan məsələlərinin, yəni Maarif Sarayının təchizatının yekunlaşdırılması ilə bağlı qərarı əks etdirir. Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin tarixsiz protokol çıxarışına əsaslanan məxfi qərar göstərir ki, Türkoloji Qurultayın keçirilməsi üçün yalnız təşkilati və ideoloji hazırlıqla kifayətlənilmir, eyni zamanda fiziki və maddi-texniki şəraitin təmin olunması məsələsi də dövlət səviyyəsində həll olunurdu. Xalq Komissarları Sovetinə (XKS) ünvanlanan bu təkliflə partiya rəhbərliyi, qrultayın keçiriləcəyi məkan – Maarif Sarayının tam şəkildə təchiz edilməsini tələb edirdi. Bu isə sübut edir ki, Qurultay sıradan bir elmi tədbir deyildi. Onun keçirilməsi siyasi simvolizm və dövlət prestiji daşıyırdı və buna uyğun olaraq ən yüksək şəraitin yaradılması zəruri hesab edilirdi. Belə bir yanaşma həm tədbirə verilən əhəmiyyətin, həm də tədbirin ideoloji nümayiş xarakterinin göstəricisidir.

Arxiv sənədlərinin təhlili göstərir ki, 1926-cı il I Ümumittifaq Bakı Türkoloji Qurultayı yalnız elmi təşəbbüs deyil, ideoloji, inzibati və simvolik baxımdan yüksək səviyyədə nəzarət olunan bir dövlət layihəsidir. Qurultayın keçirilmə prosesi çoxsəviyyəli sovet idarəetmə strukturlarında – Azərbaycan KP(b) MK-nın Gizli şöbəsi və Rəyasət Heyəti səviyyəsində müzakirəyə çıxarılır, onun bütün mərhələləri – vaxtı, təşkilat komitəsinin tərkibi və fiziki şəraitin təmin olunması – partiya qərarları ilə tənzimlənir.

1. Vaxt: Qurultayın keçirilməsi Moskvaya ezam olunmuş nümayəndələrin qayıdışından asılı olaraq təxirə salınır. Bu, mərkəzin razılığı olmadan heç bir təşəbbüsün həyata keçirilə bilməyəcəyini açıq şəkildə göstərir.
2. Təşkilat Komitəsinin yenilənməsi: Partiya rəhbərliyi komitənin tərkibində dəyişiklik edilməsini tələb edir. Bu dəyişiklik yalnız təşkilati səmərəlilik deyil, həm də siyasi uyğunluq prinsipi ilə diktə olunur.
3. Maarif Sarayının tam təchiz olunması: Qurultay üçün xüsusi məkanın (Maarif Sarayının) yüksək səviyyədə hazırlanması, onun sıradan elmi tədbir yox, ideoloji nümayiş və dövlət imici baxımından əhəmiyyətli bir akt kimi qəbul edildiyini sübut edir.

Bu faktlar göstərir ki, Türkoloji Qurultay sovet rejimi üçün təkcə elmi əməkdaşlıq platforması yox, həm də türk xalqlarının dil və kimlik məsələləri üzərində dövlət nəzarətini möhkəmləndirmək üçün alət idi. Qurultayın harada, kim tərəfindən, nə zaman və necə keçiriləcəyi məsələləri ideoloji planlaşdırmanın tərkib hissəsi idi. Hər bir detal mərkəzi hakimiyyətin icazəsi və təsdiqi ilə həyata keçirilirdi.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*


Пролетарии всех стран соединяйтесь!
آذربایجان قوممونیست فرقه‌سینک (بولشه‌ویک) قوممیته‌سی
Азербайджанская Коммунистическая Партия (Большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ
Строго-секретно. Хранить в особом личном деле
№ ....... Д. «.......» ............ 192 г.
Тов. ..........
Выписка из протокола № ....... Президиума ЦК АКП (б-ов) от „ .... „ ........ 192 г.
Баку, Коммунистическая, 1. Коммутатор №№ 8-08 и 7-01.
При ответах ссылаться на наш №

| §§ | Слушали | Постановили |
|---|---|---|
| | | г/ Предложить всем членам Азербайджанской делегации принять самое деятельное участие в подготовке Азербайджана к С"езду. д/ О созыве Тюркологического С"езда поручить Секретариату информировать ЦК ВКП (б). е/ Поручить СНК АССР отпустить необходимые средства для проведения по Азербайджану подготовительной работы к С"езду. Поручить Оргкомиссии по созыву С"езда представить в СНК смету на расходы по подготовке Азербайджана к С"езду. |

Правила о порядке хранения см. на обороте.

Bu sənəd də Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin Ggizli iclas protokolundan çıxarışıdır. Tarix və protokol nömrəsi göstərilməyəsə (səbəbə aydın deyil) də qərar məlumdur:

a) Nümayəndə heyətinin bütün üzvlərinə təklif edilsin ki, Azərbaycanın qrultaya hazırlığında ən fəal şəkildə iştirak etsinlər;

b) Türkoloji Qurultayın çağırılması ilə bağlı MK VKP(b) Katibliyinə məlumat vermək MK katibinə həvalə olunsun.

c) SSRİ Xalq Komissarları Sovetinə (XKS) tapşırılsın ki, Azərbaycanda Qurultaya hazırlıq işləri üçün zəruri vəsaitləri ayırsın.

ç) Qurultayın çağırılması üzrə Təşkilat Komissiyasına tapşırılsın ki, Azərbaycanın hazırlığı ilə bağlı xərclər smetasını XKS-ə təqdim etsin (1, 8).

***

Bu sənəd, Azərbaycan nümayəndələrinin Qurultaya hazırlıq işlərinə cəlb olunması, mərkəzi hakimiyyət orqanlarına məlumat verilməsi və maliyyə təminatının ayrılması ilə bağlı təşkilati qərarları əhatə edir. Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin tarixsiz gizli protokolundan

görünür ki, Türkoloji Qurultay yalnız ideoloji nəzarət baxımından deyil, eyni zamanda maddi, inzibati və diplomatik səviyyədə koordinasiya olunan bir dövlət tədbiri idi.

Sənəddə:

1. Nümayəndələrin fəal iştirakı təşviq olunur. Bu göstərir ki, təkcə rəsmi komitələr deyil, bütün nümayəndələr səfərbər olunmalı, təşəbbüsə cəlb edilməli idi;
2. Qurultay haqqında məlumat VKP(b) Katibliyinə çatdırılır. SSRİ səviyyəsində mərkəzi partiya rəhbərliyinin məlumatlandırılması vacib sayılırdı;
3. Maliyyələşdirmə məsələsi birbaşa SSRİ Xalq Komissarları Sovetinə tapşırılır. Qurultayın sadəcə yerli imkanlarla deyil, birbaşa mərkəzin ayırdığı vəsaitlə reallaşdırılacağını sübut edir;
4. Xərclər smetasının hazırlanması və təqdim edilməsi. Tədbirin planlaşdırılmasında büdcə məsuliyyəti dəqiq bölüşdürülmüşdü və formal-maliyyə strukturu yaradılmışdı.

Bu qərarlar göstərir ki, qurultay təşkilati-maliyyə baxımından da tam mərkəzləşdirilmiş şəkildə həyata keçirilirdi.

A.Qurultay yalnız elmi ictimaiyyətin təşəbbüsü deyil, birbaşa partiya rəhbərliyi tərəfindən formalaşdırılmış strateji layihə idi;

B.Qurultayın keçirilməsi SSRİ mərkəzi orqanlarının razılığına və nəzarətinə tabe idi;

C.Təşkilat Komitəsinin tərkibi dəyişdirilir, maarif məkanları xüsusi göstərişlə təchiz olunur, ezamiyyətlər həyata keçirilir, maliyyə vəsaiti ayrılır və bu proseslərin hamısı ideoloji uyğunluq və inzibati planlaşdırma ilə tənzimlənirdi;

Ç.Nümayəndələrin aktiv iştirakı, smetanın təqdim olunması və XKS-dan maliyyə tələb olunması isə bu tədbirin sıradan bir elmi simpoziumdan çıxaraq dövlətin siyasi vitrininə çevrildiyini göstərir.

I Ümumittifaq Türkoloji Qurultay Sovet hakimiyyətinin türk xalqlarına yönəlmiş dil, mədəniyyət və kimlik siyasətini formalaşdırmaq və yönləndirmək üçün seçdiyi alətlərdən biri olmuşdur. Onun hər bir mərhələsi – təşəbbüsdən tutmuş təchizata, vaxtlamadan tutmuş smetaya qədər – mərkəzi partiya strukturlarının razılığı və təlimatı ilə müəyyən edilmişdir.

Bu, sovet elmi və mədəni siyasətinin necə idarə olunan, nəzarətli və məqsədli bir aparat halına gəldiyini ən açıq formada göstərən nümunədir.

## Xülasə

Azərbaycan elmi mühitinin yaddaşında iz kimi qalacaq bu məxfi arxiv sənədləri təkcə bir elmi məqalənin deyil, yüz il öncənin səsini bu günə daşımaq cəhdinin nəticəsidir. Azərbaycan Resbublikası Prezidentinin İşlər İdarəsi İctimai-siyasi Sənədlər Arxivində I Ümumittifaq Türkoloji Qurultayla bağlı qorunub

saxlanılan məxfi sənədlər tarixi hadisələri, dövrün siyasi, iqtisadi, sosial və mədəni mənzərəsini geniş əks etdirir, tariximizin yenidən işlənməsi və müstəqillik düşüncəsi baxımından dəyərləndirilməsi üçün zəngin bazadır. Gizli protokollar, teleqramlar, qərarlar, məktublar, nümayəndələrin siyahısı, stenoqrafik hesabatlar 100 il ərzində ilk dəfədir ki, işıq üzü grür və təhlil edilir. Bu arxiv sənədləri rəsmi olaraq Moskva və Bakının partiya strukturlarında saxlanılmış və daim nəzarətdə olmuşdur.

Məqalədə Azərbaycan elmi mühitinin yaddaşında iz kimi qalacaq, uzun illər məxfilik rejimində qorunmuş arxiv sənədləri ilk dəfə elmi dövriyyəyə buraxılmışdır. Araşdırmanın əsasını Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-siyasi Sənədlər Arxivində mühafizə edilən və I Ümumittifaq Türkoloji Qurultayla bağlı olan məxfi materiallar təşkil edir. Sözügedən sənədlər yalnız konkret bir elmi hadisəni deyil, bütövlükdə XX əsrin ilk rübündə formalaşmış siyasi, iqtisadi, sosial və mədəni reallıqları geniş kontekstdə əks etdirir. Məxfi protokollar, teleqramlar, qərar layihələri, rəsmi və qeyri-rəsmi məktublar, qurultay iştirakçılarının siyahıları və stenoqrafik hesabatlar əsasında aparılan təhlil göstərir ki, bu materiallar yüz il ərzində ilk dəfə sistemli şəkildə araşdırılır və elmi cəhətdən qiymətləndirilir. Həmin sənədlər rəsmi olaraq Moskva və Bakı şəhərlərində yerləşən partiya strukturlarında saxlanılmış, ciddi nəzarət altında qorunmuş və geniş tədqiqatçılar çevrəsinə açıq olmamışdır.

Bu arxiv mənbələri əsasında I Ümumittifaq Türkoloji Qurultayının yalnız elmi deyil, eyni zamanda ideoloji və siyasi mahiyyəti də təhlil edilir, hadisələrin dövrün hakim diskursu çərçivəsində necə formalaşdırıldığı göstərilir. Araşdırma nəticələri tariximizin yenidən işlənməsi, milli elmi düşüncənin inkişaf mərhələlərinin daha aydın təsəvvür edilməsi və müstəqillik ideyasının tarixi köklərinin dərk olunması baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

**Açar sözlər***:* məxfi sənədlər, arxiv materialları, protokollar, teleqramlar, qərar layihələri, rəsmi və qeyri-rəsmi yazışmalar, qurultay iştirakçılarının siyahıları, stenoqrafik hesabatlar.

## Ədəbiyyat

1. Azərbaycan Resbublikası Prezidentinin İşlər İdarəsi İctimai-siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 9, saxlanma vahidi 358, qutu 57.
2. Fond 1, siyahı 9, saxlanma vahidi 358, qutu 57, səh. 1.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 3-20*

**Надир Мамедли**
доктор филологических наук, профессор
Институт языкознания имени Насими НАНА

# I ВСЕСОЮЗНЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД В СЕКРЕТНЫХ АРХИВНЫХ ДОКУМЕНТАХ

## РЕЗЮМЕ

Данные секретные архивные документы, которые оставят заметный след в памяти азербайджанского научного сообщества, являются результатом не только подготовки одной научной статьи, но и попыткой донести до современности голос столетней давности. Секретные материалы, связанные с I Всесоюзным тюркологическим съездом и хранящиеся в Архиве общественно-политических документов Управления делами Президента Азербайджанской Республики, всесторонне отражают исторические события, а также политическую, экономическую, социальную и культурную картину эпохи, представляя собой богатую источниковую базу для переосмысления истории и ее оценки с позиций идеи независимости. Секретные протоколы, телеграммы, постановления, письма, списки делегатов и стенографические отчеты впервые за сто лет вводятся в научный оборот и подвергаются анализу. Эти архивные документы официально хранились в партийных структурах Москвы и Баку и находились под постоянным строгим контролем. В статье впервые в научный оборот вводятся архивные материалы, длительное время находившиеся в режиме секретности и способные занять особое место в коллективной памяти азербайджанского научного сообщества. Основу исследования составляют секретные документы, хранящиеся в Архиве общественно-политических документов Управления делами Президента Азербайджанской Республики и относящиеся к I Всесоюзному тюркологическому съезду. Указанные материалы отражают не только конкретное научное событие, но и в целом политические, экономические, социальные и культурные реалии, сформировавшиеся в первой четверти XX века. Анализ, проведенный на основе секретных протоколов, телеграмм, проектов решений, официальной и неофициальной переписки, списков участников съезда и стенографических отчетов, показывает, что данные источники впервые за столетие подвергаются системному научному изучению и оценке. Эти документы официально хранились в партийных структурах Москвы и Баку, находились под строгим контролем и не были доступны широкому кругу исследователей.

На основе указанных архивных источников в статье анализируется не только научная, но и идеологическая и политическая сущность I Всесоюзного тюркологического съезда, а также раскрывается, каким образом события формировались в рамках господствующего дискурса эпохи. Результаты исследования имеют важное научное значение с точки зрения переосмысления

истории, более четкого понимания этапов развития национальной научной мысли и осознания исторических корней идеи независимости.

**Ключевые слова:** секретные документы, архивные материалы, протоколы, телеграммы, проекты решений, официальная и неофициальная переписка, списки участников съезда, стенографические отчёты.

**Nadir Mammadli**
Doctor of Philological Sciences, Professor
Nasimi Institute of Linguistics, ANAS

## THE FIRST ALL-UNION TURKOLOGICAL CONGRESS IN SECRET ARCHIVAL DOCUMENTS

### SUMMARU

These classified archival documents, which are destined to leave a lasting mark on the collective memory of the Azerbaijani academic community, represent not only the result of preparing a single scholarly article, but also an attempt to convey to the present day the voice of a century ago. The classified materials related to the First All-Union Turkological Congress and preserved in the Archive of Socio-Political Documents of the Administrative Department of the President of the Republic of Azerbaijan comprehensively reflect historical events, as well as the political, economic, social, and cultural landscape of the era, constituting a rich source base for the reinterpretation of history and its assessment from the perspective of the idea of independence. Classified protocols, telegrams, resolutions, letters, lists of delegates, and stenographic reports are introduced into scholarly circulation and subjected to analysis for the first time in a hundred years. These archival documents were officially stored within the party structures of Moscow and Baku and remained under constant strict control. For the first time, the article introduces into academic circulation archival materials that remained classified for a long period and are capable of occupying a distinctive place in the collective memory of the Azerbaijani scholarly community. The study is based on classified documents preserved in the Archive of Socio-Political Documents of the Administrative Department of the President of the Republic of Azerbaijan and related to the First All-Union Turkological Congress. These materials reflect not only a specific academic event, but also the broader political, economic, social, and cultural realities that took shape in the first quarter of the twentieth century. The analysis conducted on the basis of classified protocols, telegrams, draft resolutions, official and unofficial correspondence, lists of congress participants, and stenographic reports demonstrates that these sources are being subjected to systematic scholarly examination and evaluation for the first time in a century. These documents were officially held

within party structures in Moscow and Baku, remained under strict control, and were inaccessible to a wide circle of researchers.

On the basis of these archival sources, the article analyzes not only the scholarly, but also the ideological and political essence of the First All-Union Turkological Congress, and reveals the ways in which events were shaped within the dominant discourse of the period. The results of the study are of significant scholarly importance for the reinterpretation of history, a clearer understanding of the stages in the development of national academic thought, and the recognition of the historical roots of the idea of independence.

**Keywords:** classified documents, archival materials, protocols, telegrams, draft resolutions, official and unofficial correspondence, lists of congress participants, stenographic reports.

**Rəyçi: filologiya elmləri doktoru, professor İlham Tahirli**